# KƏRİMOV ELGİZ KƏRİM OĞLU



Elgiz Kərimov 1971-ci il yanvarın 5-də Bərdə rayonunda anadan olmuşdur. 1987-ci ildə orta təhsilini başa vurmuş, həmin il hərbi xidmətə çağırılmışdır. 1989-cu ildə əsgəri borcunu yerinə yetirdikdən sonra doğma yurduna qayıtmışdır. 1991-ci ildə silaha sarılaraq vətənin müdafiəsinə qalxmışdır. O, könüllülərdən ibarət batalyonun tərkibində Vətən qarşısında borcunu layiqincə yerinə yetirirdi. Elgiz Kərimov Əsgəran yaxınlığında gedən şiddətli döyüşlər zamanı xüsusi fəallıq göstərmiş, yoldaşları ilə bir yerdə xeyli sayda erməni yaraqlısını məhv etmiş, 3 erməni əsgərini əsir götürmüşdür. O, Cəmilli kəndinin müdafiəsi zamanı ağır yaralanmışdır, müalicə aldıqdan sonra yenidən cəbhəyə qayıtmışdır. 1992-ci il martın 12-də mühasirəyə düşmüş döyüşçü yoldaşlarını xilas etmək üçün E. Kərimov Naxçıvanik kəndində döyüşə girmişdir. Bir saata yaxın davam edən ağır vuruşmadan sonra ermənilərin mühasirəsi yarılmış, döyüşçülərimiz azad edilmişdir. Əfsus ki, Elgiz özü düşmən gülləsinə tuş gəlmişdir. Bərdə rayonunda dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı Fərmanı ilə Kərimov Elgiz Kərim oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. 1994-cü ildən Bərdə şəhər 4 saylı tam orta məktəb Milli Qəhrəmanın adını daşıyır.